

# Milli həmrəyliyi təmin etmiş ümummilli lider

***Qəlbi daim Vətən eşqi ilə döyünən, bütün varlığı ilə xalqına bağlı olan, istiqlal yolumuzu və istiqbalımızı nurlandıran, millətini zamanın sərt sınaqlarından yüksək məharətlə çıxararaq, hər bir çətin vəziyyətdən ən düzgün çıxış yolu tapan müdrik lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü həm ölkə daxilində, həm də kənarda böyük təntənə ilə qeyd edilib. Ulu öndərin Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğunda, ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində əvəzsiz xidmətləri olub. Ümummilli lider deyirdi ki, “Gərək nəbzin Vətənin nəbzi ilə vursun.” Onun da nəbzi daim Vətənin, Azərbaycanın nəbzi ilə vururdu. Müdrik şəxsiyyət ömrünü güclü və müstəqil Azərbaycanın qurulmasına, azərbaycançılıq ideologiyasının möhkəmləndirilməsinə həsr etdi.***

Azərbaycanda milli ideologiyanın yaradılması ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət quruculuğu siyasətinin mühüm tərkib hissəsidir. O, hələ sovetlər dönəmində gələcək müstəqil dövlətçiliyin milli rəmzlərini qoruyurdu. Milli-mənəvi dəyərlərin qorunması, kadrların milliləşdirilməsi, azərbaycançılıq məfkurəsinin sistem halına salınması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirirdi. Məhz ulu öndərin formalaşdırdığı və inkişaf etdirdiyi azərbaycançılıq fəlsəfəsi dünya azərbaycanlılarının həmrəyliyi üçün zəmin yaratdı. “Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!” – deyən ümumilli lider dünya azərbaycanlılarının həmrəyliyi, onların təşkilatlanması prosesini daim diqqət mərkəzində saxlayırdı. “Harada doğulmağın fərqi yoxdur, əsas odur ki, sən azərbaycanlısan, Azərbaycan dilinin, mədəniyyətinin daşıyıcısıısan”,– deyirdi. Beləliklə də, həmrəylik gününün təsis olunması ilə dünya azərbaycanlılarının potensial imkanlarının birləşməsinə və ideoloji həmrəyliyə nail olundu.

Azərbaycan dili ilə bağlı tarixi təşəbbüs də ulu öndər Heydər Əliyevə məxsusdur. 1978-ci il aprelin 2-də IX çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş VII sessiyasında məruzə ilə çıxış edən Heydər Əliyevin təklifi ilə 73-cü maddəni aşağıdakı redaksiyada vermək təklif olundu: “Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir.” Heydər Əliyevin bu təşəbbüsü 1978-ci il aprelin 21-də qəbul olunmuş Azərbaycan SSR Konstitusiyasında öz əksini tapmışdır. Azərbaycan dilinə dövlət dili statusunun verilməsi ümummilli lider Heydər Əliyevin xalq qarşısında ən böyük tarixi xidmətlərindən biridir. 1995-ci ildə qəbul olunmuş Konstitusiyanın 21-ci maddəsində də Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması öz əksini tapdı.

Milli dövlətçilik ənənələri, xalqın tarixi yaddaşının özünə qaytarılması Azərbaycanın sürətli inkişafında hərəkətverici qüvvəyə çevrildi. Ulu öndər hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olarkən – 1990-cı il noyabrın 17-də Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət bayrağını Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı olaraq təsdiq etdi, Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırdı.

Ulu öndərin 1993-cü ilin oktyabrında dövlət başçısı seçilməsindən sonra müstəqil Azərbaycanın hüquqi və siyasi-iqtisadi suverenliyinin təmin olunması prosesi əsaslı şəkildə sürətləndi. Ölkənin sosial-iqtisadi yüksəlişinə yol açan ən mühüm amil kimi cəmiyyətdə ictimai-siyasi sabitlik bərqərar edildi. Uğurlu neft strategiyası Azərbaycanın zəngin təbii sərvətlərindən xalqın rifahı naminə daha da səmərəli istifadəsi ilə yanaşı, ölkənin dayanıqlı inkişafını da təmin etdi. Hələ sovet dönənimdə 1969-cu ildə hakimiyyətə gəlişindən sonra ölkəmizdə hərbi kadrların hazırlanması prosesi müstəqillik dövründə Milli Ordunun formalaşdırılması, Azərbaycanın nizami silahlı qüvvələrinin yaradılması ilə nəticələndi.

Heydər Əliyev milli həmrəyliyi təmin etmiş xalqın lideridir. O, öz müdrik rəhbərliyi, siyasi uzaqgörənliyi, qətiyyəti və əzmkarlığı ilə zəmanəmizin görkəmli siyasi xadimi kimi tanınıb, Azərbaycan xalqının ümummilli liderinə çevrilib. Müdrik şəxsiyyət fəaliyyət göstərdiyi bütün sahələrdə özünü lider kimi təsdiq etmişdir. Onun liderlik keyfiyyətlərini xarakterizə edənlər də deyir ki, Heydər Əliyevin ən böyük gücü dərin və universal biliyində, qətiyyətində, uzaqgörənliyində və müdrikliyində idi. O, nüfuzlu siyasətçilər tərəfindən də siyasi lider kimi xarakterizə olunur.

Ulu öndər öz müdrikliyi, cəsarəti ilə Azərbaycan xalqının sevgisini qazanmışdı. Xalq heç vaxt ondan öz dəstəyini əsirgəməmişdi. Ən ağır məqamlarda Azərbaycan xalqı əmin idi ki, Heydər Əliyev müstəqilliyi, xalqın maraqlarını qoruyacaq və dövlətin mənafeyi ilə bağlı ən düzgün qərar verəcək. Onun həyata keçirdiyi uğurlu siyasət nəticəsində Azərbaycan bölgənin ən inkişaf etmiş ölkəsinə çevrildi. Heydər Əliyevin beynəlxalq miqyasda uğurlu və cəsarətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan bacarıq və məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli olmuşdur. Fəal diplomatiyanın nəticəsində dünyanın demokratik dövlətlərinin və aparıcı təşkilatlarının ölkəmizə, onun zorla cəlb edildiyi silahlı münaqişəyə münasibətinin əsaslı surətdə dəyişməsi mümkün olmuşdur.

Ulu öndərin ən böyük arzusu işğal olunmuş ərazilərin azad olunması, Azərbaycanın ərazi bütövlüyünün bərpası idi. O, bütün görüşlərində inamla “Gün gələcək, biz o torpaqlara mütləq qayıdacağıq!” – deyirdi. Heydər Əliyevin vəsiyyətini Prezident, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı İlham Əliyev yerinə yetirdi. Hərbi-siyasi-iqtisadi güclə yanaşı, xalq-ordu-dövlət birliyi, milli həmrəylik 44 günlük Vətən müharibəsində Azərbaycanın böyük Qələbəsini təmin etdi. Ulu öndərin hər zaman ön planda saxladığı azərbaycançılıq ideyası, Vətənə, dövlətə, milli maraqlara bağlılıq, sadiqlik bu gün də ön plandadır. Azərbaycan həm də bu dəyərlər hesabına bu gün beynəlxalq münasibətlər sisteminin layiqli üzvüdür.

***Könül NURULLAYEVA,***
***Milli Məclisin deputatı***